Təhsil Tələbə Krediti Fondu

# TƏHSİL TƏLƏBƏ KREDİTİ FONDU

www.ttkf.edu.az

office@ttkf.edu.az

# TƏHSİL TƏLƏBƏ KREDİTİ FONDU VƏ HİMAYƏÇİLİK ŞURASI

## Qanunvericilik

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanı:

**1.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Təhsil Tələbə Krediti Fondu" yaradılsın.

**2.** "Təhsil Tələbə Krediti Fondunun Nizamnaməsi" təsdiq edilsin.

**3.3.** Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 7 (yeddi) üzvdən ibarət Himayəçilik Şurası yaradılır.



# Himayəçilik Şurasının təhsil tələbə krediti üzrə illik faiz dərəcələrinin və təhsil tələbə kreditinin məbləğinin yuxarı həddinin təsdiq edilməsinə dair öhdəlikləri

## Qanunvericilik

"3.2. təhsil tələbə kreditinin məbləğinin yuxarı həddi hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləğindən çox olmamalıdır;"

2. Bu Fərmanla təsdiq edilmiş Təhsil Tələbə Krediti Fondunun Nizamnaməsi:

3.10. Himayəçilik Şura aşağıdakı vəzifələri yerinə yetirir:

3.10.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, standart və sosial təhsil tələbə krediti üzrə illik faiz dərəcələrini, habelə hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləği nəzərə alınmaqla, təhsil tələbə kreditinin məbləğinin yuxarı həddini təsdiq edir;

3.10.3. birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbələrin standart təhsil tələbə krediti almaq hüququnu müəyyən edən tələbə qəbulu imtahanında toplanan ümumi balın minimal həddini təsdiq edir;

# ÜMUMİ MƏLUMAT

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi qaydası"nın təsdiq edilməsihaqqında 2021-ci il 24 iyul, №226 qərarı



2.1.1. təhsil tələbə krediti (bundan sonra - TTK) - Azərbaycan Respublikasının təhsil müəssisələrində təhsil haqqı xərclərini ödəmək üçün Fondun vəsaiti hesabına müvəkkil bank tərəfindən tələbə ilə bağlanılmış müqaviləyə uyğun olaraq müəyyən müddətə və faizlər ödənilmək şərtilə borc verilən pul vəsaitidir;

2.1.2. tələbə - ali təhsil pilləsinin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura) səviyyələrində, orta ixtisas təhsili pilləsində və peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsində əyani təhsil alan şəxs;



# TƏHSİL MÜƏSSİSƏLƏRİ

| Ali təhsil müəssiləri | Təhsil müəssisələrinin sayı |
| --- | --- |
| Təhsil Nazirliyinin tabeliyində olanlar | 20 (+7 filial) |
| Digər dövlət qurumlarının tabeliyində olanlar | 11 |
| Özəllər | 11 |
| Rusiya Federasiyasının təhsil müəssisələrinin Bakı filialları | 2 |
| **Cəmi** | **44** (+7 filial) |

| Orta ixtisas təhsil müəssisələri | Təhsil müəssisələrinin sayı |
| --- | --- |
| Təhsil Nazirliyinin tabeliyində olanlar | 35 |
| Naxçıvan MR Təhsil Nazirliyinin tabeliyində olanlar | 2 |
| Digər dövlət qurumlarının tabeliyində olanlar | 14 |
| Özəllər | 4 |
| **Cəmi** | **55** |



**Qeyd:** 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərindən 972 nəfəri ali, orta ixtisas və orta təhsilə malikdir. Əhalinin hər 10000 nəfərinə ali  təhsil müəssisələrində tələbələrin sayı 200 nəfərdir, orta ixtisas təhsili müəssisələrində 63 nəfərdir.

# TƏLƏBƏLƏR

Bütün əyani təhsil alan tələbələrin **59,5%** ödənişli təhsil alan tələbələrdir, o cümlədən bakalavriat səviyyəsi üzrə **58,5%,** magistratura səviyyəsi üzrə **62.8%** və subbakalavriat səviyyəsi üzrə **61%** ödənişli təhsil alır.

| Göstəricilər | Cəmi | Bakalavriat | Magistratura | Subbakalavriat |
|---|---|---|---|---|
| **Bütün tələbələr** | **266.029** | 183.095 | 19.286 | 63.648 |
| Onlardan **əyani** təhsil alanlar | 246.162 | 168.117 | 19.196 | 58.849 |
| *o cümlədən:* | | | | |
| **Ödənişli** təhsil alan tələbələr | 146.373 | 98.430 | 12.051 | 35.892 |
| **Dövlət hesabına** təhsil alanlar | 20.200 | 17.500 | 1.200 | 1.500 |

# TƏLƏBƏLƏR

Əyani təhsil alan tələbələrin **59,5%** ödənişli təhsil alan tələbələrdir, o cümlədən bakalavriat səviyyəsi üzrə **58,5%**, magistratura səviyyəsi üzrə **62.8%** və subbakalavriat səviyyəsi üzrə **61%** ödənişli təhsil alır.



# TƏLƏBƏLƏR



| Göstəricilər | Cəmi | Bakalavriat | Magistratura | Subbakalavriat |
|---|---|---|---|---|
| **Ödənişli** təhsil alan tələbələr | 146373 | *98430* | *12051* | *35892* |
| *Onlardan:* | | | | |
| **Dövlət hesabına** təhsil alanlar | 20200 | *17500* | *1200* | *1500* |
| Təhsil haqqı ödəyən tələbələr | 126173 | *80930* | *10851* | *34392* |

# TƏLƏBƏLƏR

| Göstəricilər | Cəmi | Bakalavriat | Magistratura | Subbakalavriat |
|---|---|---|---|---|
| **Ödənişli** təhsil alan tələbələr | 146373 | *98430* | *12051* | *35892* |



# TƏLƏBƏLƏR

Əyani formada ödənişli təhsil alan tələbələrin **13,8** faizinin və ya **20200** nəfərinin təhsil haqqını dövlət ödəyir.

| Göstəricilər | CƏMİ | Bakalavriat | Magistratura | Subbakalavriat |
|---|---|---|---|---|
| Məcburi köçkün statuslu tələbələr | **13400** | 12450 | 950 | 0 |
| Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş tələbələr | **1555** | 1150 | 85 | 320 |
| Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş və əlil olmuş şəxslərin uşaqları | **3935** | 3150 | 105 | 680 |
| Əlil tələbələr (1 və 2-ci dərəcə və SİMŞ.) | **1310** | 750 | 60 | 500 |
| **Yekun:** | **20200** | **17500** | **1200** | **1500** |

# TƏLƏBƏLƏR

Təhsil Tələbə Krediti almaq hüququ olanlar

| Göstəricilər | CƏMİ | Bakalavriat | Magistratura | Subbakalavriat |
|---|---|---|---|---|
| Təhsil haqqı ödəyən tələbələr | 126173 | 80930 | 10851 | 34392 |
| Akademik borcu olanlar (20-30%) | ***28674*** | *16186 (20%)* | *2170 (20%)* | *10318 (30%)* |
| ÜOMG 71 baldan aşağı olanlar (30-40%) | ***41291*** | *24279 (30%)* | *3255 (30%)* | *13757 (40%)* |
| Sosial təhsil tələbə krediti almaq hüququ olanlar | ***16800*** | *12000* | *1300* | *3500* |
| Standart təhsil tələbə krediti almaq hüququ olanlar | ***39408*** | *28465* | *4126* | *6817* |
| TTK almaq hüququ olanlar (CƏMİ) | 56208 | 40465 | 5426 | 10318 |

# TTK ALMAQ ÜÇÜN ÜMUMİ TƏLƏBLƏR

Fondun vəsaiti hesabına verilən tələbə krediti üzrə ümumi tələblər aşağıdakı kimidir:

- Tədrisə tam cəlb olunaraq (fulltime) təhsil müəssisələrində əyani təhsil almalı;
- Hər tədris semestri üçün müraciət;
- Son semestri üzrə akademik borcun olmaması;
- Girov və zaminlik tələb olunmur;
- Borcalan ölüm və əlillik hallarından sığortalanır;
- Tələbə krediti Azərbaycan manatı ilə verilir.

# TTK ALMAQ ÜÇÜN ÜMUMİ TƏLƏBLƏR

## Sosial tələbə kreditindən istifadə etmək hüququ olan şəxslər:

- ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
- 3-cü dərəcə əlilliyi olanlar;

hər iki valideyni (tək valideyni olduqda, həmin şəxs) aşağıdakı kateqoriyaların hər hansı birinə aid olduqda:

- *1-ci və ya 2-ci dərəcə əlilliyi olanlar;*
- *işsiz kimi qeydiyyatda olanlar;*
- *yaşa görə əmək pensiyası alanlar;*
- *yaşa görə sosial müavinət alanlar;*

*Qeyd: Sosial tələbə krediti almaq hüququ yuxarıda göstərilən şərtlərin hər-hansı biri olduqda yaranır.*

## Standart tələbə kreditindən istifadə etmək hüququ olan şəxslər:

- ümumi orta müvəffəqiyyət göstəriciləri (ÜOMG) 71 bal və yuxarı olanlar;
- təhsil haqqı xərcinin 20 faizini özü tərəfindən ödəyənlər;
- sosial tələbə krediti almaq hüququ olmayanlar.

*Qeyd: Standart tələbə krediti almaq hüququ yuxarıda göstərilən şərtlərin hər üçü eyni vaxtda yarandıqda təmin olunur.*

# SOSİAL TTK-NIN ALINMASI ÜÇÜN POTENSİAL MÜRACİƏT HƏCMİ

| Təsdiq olunmuş statuslar | Tələbələrin sayı | Bakalavriat | Magistratura | Subbakalavr |
|---|---|---|---|---|
| ÜDSY alan ailə üzvü | **1 170** | 650 | 20 | 500 |
| 3-cü dərəcə əlillər | **810** | 550 | 60 | 200 |
| hər iki valideyn işsiz | **7 500** | 5 500 | 500 | 1 500 |
| hər iki valideyn əlil | **990** | 750 | 80 | 160 |
| hər iki valideyn yaşa görə əmək pensiyaçısı | **260** | 150 | 70 | 40 |
| hər iki valideyn yaşa görə sosial müavinət alan | **10** | 10 | 0 | 0 |
| bir valideyn işsiz, digəri əlil | **2 190** | 1 700 | 140 | 350 |
| bir valideyn işsiz, digəri yaşa görə pensiya və ya müavinət | **155** | 120 | 20 | 15 |
| bir valideyn əlil, digəri yaşa görə əmək pensiyaçısı | **315** | 220 | 45 | 50 |
| bir valideyn əlil, digəri yaşa görə sosial müavinət alan | **75** | 50 | 10 | 15 |
| digər | **3 325** | 2 300 | 355 | 670 |
| CƏMİ | **16 800** | 12 000 | 1 300 | 3 500 |

# TTK ALMAQ HÜQUQU OLAN TƏLƏBƏLƏRİN ÜMUMİ POTENSİAL SAYI

TTKF almaq hüququ **56208 tələbədə** o cümlədən, bakalavriat səviyyəsində **40465 tələbədə**, magistratura səviyyəsində **5426 tələbədə**, subbakalavriat səviyyəsində **10318 tələbədə** yaranır.



# 2021/2022-Cİ TƏDRİS İLİNDƏ ÖDƏNİŞLİ TƏHSİL ALAN 1-Cİ KURS TƏLƏBƏLƏRİNİN TTK ALMAQ HÜQUQU OLANLAR BARƏDƏ MƏLUMAT

| Təhsil səviyyələri | I kurs | | | | |
|---|---|---|---|---|---|
| | tələbələrin sayı | TTK üçün müraciət faizi | TTK üçün müraciət edəcək tələbələrin sayı | sosial TTK almaq hüququ olanlar | standart TTK almaq hüququ olanlar |
| Bakalavriat (əyani və ödənişli) | 21364 | 41,1 | 8783 | 3020 | 5763 |
| Magistratura (əyani və ödənişli) | 6522 | 45,0 | 2936 | 260 | 2676 |
| Subbakalavriat (əyani və ödənişli) | 12833 | 28,7 | 3689 | 720 | 2969 |
| **CƏMİ** | **40719** | **37,8** | **15408** | **4000** | **11408** |

# 2021/2022-ci tədris ilində ödənişli təhsil alan 1-ci kurs tələbələrinin birinci tədris ilinin ilk semestri (yarımili) üçün standart təhsil tələbə krediti almaq hüququnu müəyyən edən tələbə qəbulu imtahanında toplanan ümumi balın minimal həddi

| Təhsil səviyyəsi | Standart TTK üçün müraciətlərin maksimal sayı | Ödənişli tələbələr üzrə | |
|---|---|---|---|
| | | bal aralığı | bal aralığı üzrə tələbə sayı |
| Bakalavr | *5763* | *300-700* | *5996* |
| Magistr | *2676* | *50-100* | *2119* |
| Subbakalavr | *2969* | *110-300* | *2770* |



# BEYNƏLXALQ TƏCRÜBƏ

Təhsil tələb kreditinə görə faiz dərəcələri kreditin verilmə şərtlərinə görə dünya ölkələrində fərqlənir:

## Faiz dərəcələri






# ÖLKƏDAXİLİ TƏCRÜBƏ

Ölkəmizdə bir sıra kommersiya bankları tələbə kreditləri təklif edirlər. Kreditin məbləği **300** manatdan **100000** manatadək dəyişir, ən uzun müddətli kredit 5 ildir, ən aşağı kredit faizi isə 16 faizdir.

Ölkədaxili təcrübəyə nəzər salsaq görürük ki, Dövlət fondlarının vəsaiti hesabına kreditlərin verilməsini bir sıra fond və agentliklər həyata keçirir.

| Kredit verən banklar | Krediin ən aşağı faizləri |
|---|---|
| Bank of Baku | 16% |
| Xalq Bank | 16% |
| Bank VTB | 19% |
| Bank Respublika | 20% |
| Turan Bank | 20% |

| Kredit verən təşkilatlar | Kredit faizləri |
|---|---|
| İpoteka və Kredit Zəmanəti Fondu | 2%-4% |
| Sahibkarlığın İnkişafı Fondu | 5% |
| Aqrar Kredit və İnkişaf Agentliyi | 5%-8% |
| İnnovasiyalar Agentliyi | 5% |
| Gənclər Fondu | 5% |

2011-2015-ci ildə Mərkəzi Bankın təşəbbüsü ilə seçilmiş agent banklar vasitəsi ilə ADA tələblərinə güzəştli kreditlərin verilməsi layihəsi reallaşmışdır. Müvafiq kreditlər 10 il müddətədək, illik faiz dərəcəsi 5% olmaqla verilmişdir. Hazırda, həmin kreditlərin qalıq məbləği 91 min manat təşkil edir və keyfiyyəti qənaətbəxşdir.

# TƏLƏBƏ KREDİTİ MÜDDƏTİ VƏ FAİZLƏR

Fondun vəsaiti hesabına verilən tələbə krediti üzrə ümumi tələblər aşağıdakı kimidir:

| | Təhsil Müddəti | Güzəşt Dövrü | Qaytarılma Müddəti | Möhlət Dövrü | TOPLAM |
|---|---|---|---|---|---|
| **Bakalavr** | 4-6 il | 2 il | 10 il | 2-4 il | 18-22 il |
| **Magistr** | 1.5-2 il | 2 il | 10 il | 2-4 il | 15.5-18 il |
| **Subbakalavr** | 2-3 il | 2 il | 10 il | 2-4 il | 16-19 il |

Sosial tələbə kreditləri üzrə illik faiz dərəcəsi

**2%**

Standart tələbə kreditləri üzrə illik faiz dərəcəsi

**6%**

**Qeyd:** Təhsil, güzəşt və möhlət müddətində kreditə faiz hesablanmır və ödəniş tələb olunmur

# TƏLƏBƏ KREDİTLƏRİ ÜZRƏ TƏTBİQ EDİLƏN GÜZƏŞTLƏR

Fondun vəsaiti hesabına verilən tələbə krediti üzrə güzəştlər aşağıdakı kimidir:

**Sosial tələbə kreditindən istifadə edən şəxslər üçün:**

- ÜOMG-si 71 bal və yuxarı olan tələbəyə həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır;
- təhsil dövründə bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan tələbələr təhsil müddətində aldığı tələbə kreditinin 50 faizi hissəsinin ödənişindən azad olunur.

**Standart tələbə kreditindən istifadə edən şəxslər üçün:**

- ÜOMG-si 91 bal və yuxarı olan tələbəyə həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır;
- təhsil dövründə bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan tələbələr təhsil müddətində aldığı tələbə kreditinin 25 faizi hissəsinin ödənişindən azad olunur.



# MÖHLƏT VƏ SIĞORTA

## Tələbə kreditlərinə möhlət verilir və kreditlər müəyyən hallardan sığortalanır

### Möhlət verilən hallar:

- yuxarı təhsil səviyyəsində əyani təhsil;
- həqiqi hərbi xidmət;
- məhkumluq;
- işləyən məzunlara münasibətdə hamiləliyə və doğuma görə və uşağının üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyət;
- sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq müddəti.
- Möhlətin 1 tələbə üçün hesablanan orta müddəti 2-4 ildir.



### Sığortalanan hallar:

- Ölüm;
- Əmək qabiliyyətinin tam yaxud qismən itirilməsi (əlillik);




***Qeyd:*** *Sığorta müqaviləsinin tərəfləri tələbə kreditini alan tələbə və sığorta şirkətidir. Sığorta haqqı hər kredit müqaviləsinə uyğun hesablanır və tələbənin aldığı kreditin məbləğinə əlavə olunaraq müvəkkil bank tərəfindən ödənilir.*

BAKALAVRİAT

# AKTUAR HESABLAMALAR

## Bakalavr təhsili üçün kredit alanların perspektivi, AZN

**Sosial**
**tələbə krediti**

| Göstəricilər | Təhsil | Güzəşt | Geri-ödəmə | Möhlət |
|---|---|---|---|---|
| **İllər** | 2021-2025 | 2025-2029 | 2029-2041 | 2027-2039 |
| **Müddət** | 4 il | 2 il | 10 il | ~2 il |
| **Kredit, o cüml.** | 8 610 | - | 9 506,8 | - |
| - əsas hissə | - | - | 8 610 | - |
| - faiz | - | - | 896,3 | - |
| **Aylıq geri-ödəmə (sabit)** | 79,2 | | | |
| - əsas hissə (orta) | 71,7 | | | |
| - faiz (orta) | 7,5 | | | |

**Standart**
**tələbə krediti**

| Göstəricilər | Təhsil | Güzəşt | Geriödəmə | Möhlət |
|---|---|---|---|---|
| **İllər** | 2021-2025 | 2025-2029 | 2029-2041 | 2027-2039 |
| **Müddət** | 4 il | 2 il | 10 il | ~2 il |
| **Kredit, o cüml.** | 6 888 | - | 9176,5 | - |
| - əsas hissə | - | - | 6 888 | - |
| - faiz | - | - | 2 288,5 | - |
| **Aylıq geri-ödəmə (sabit)** | 76,5 | | | |
| - əsas hissə (orta) | 57,4 | | | |
| - faiz (orta) | 19,1 | | | |

MAGİSTRATURA

# AKTUAR HESABLAMALAR

## Magistr təhsili üçün kredit alanların perspektivi, AZN

## Sosial
**tələbə krediti**

| Göstəricilər | Təhsil | Güzəşt | Geri-ödəmə | Möhlət |
|---|---|---|---|---|
| **İllər** | 2021-2025 | 2025-2029 | 2029-2041 | 2027-2039 |
| **Müddət** | 2 il | 2 il | 10 il | ~2 il |
| **Kredit, o cüml.** | 4 859 | - | 5 365,1 | - |
| - əsas hissə | - | - | 4 859 | - |
| - faiz | - | - | 506,1 | - |
| **Aylıq geri-ödəmə (sabit)** | 44,7 | | | |
| - əsas hissə (orta) | 40,5 | | | |
| - faiz (orta) | 4,2 | | | |

## Standart
**tələbə krediti**

| Göstəricilər | Təhsil | Güzəşt | Geriödəmə | Möhlət |
|---|---|---|---|---|
| **İllər** | 2021-2025 | 2025-2029 | 2029-2041 | 2027-2039 |
| **Müddət** | 2 il | 2 il | 10 il | ~2 il |
| **Kredit, o cüml.** | 3 887 | - | 5 178,4 | - |
| - əsas hissə | - | - | 3 887 | - |
| - faiz | - | - | 1 291,4 | - |
| **Aylıq geri-ödəmə (sabit)** | 43,1 | | | |
| - əsas hissə (orta) | 32,4 | | | |
| - faiz (orta) | 10,7 | | | |

SUBBAKALAVRİAT

# AKTUAR HESABLAMALAR

## Subbakalavr təhsili üçün kredit alanların perspektivi, AZN

**Sosial**
**tələbə krediti**

| Göstəricilər | Təhsil | Güzəşt | Geri-ödəmə | Möhlət |
|---|---|---|---|---|
| **İllər** | 2021-2025 | 2025-2027 | 2027-2039 | 2027-2039 |
| **Müddət** | 3 il | 2 il | 10 il | ~2 il |
| **Kredit, o cüml.** | 2276 | - | 2513 | - |
| - əsas hissə | - | - | 2276 | - |
| - faiz | - | - | 237 | - |
| **Aylıq geri-ödəmə (sabit)** | 21 | | | |
| - əsas hissə (orta) | 19 | | | |
| - faiz (orta) | 2 | | | |

**Standart**
**tələbə krediti**

| Göstəricilər | Təhsil | Güzəşt | Geriödəmə | Möhlət |
|---|---|---|---|---|
| **İllər** | 2021-2025 | 2025-2027 | 2027-2039 | 2027-2039 |
| **Müddət** | 3 il | 2 il | 10 il | ~2 il |
| **Kredit, o cüml.** | 1820 | - | 2424,7 | - |
| - əsas hissə | - | - | 1820 | - |
| - faiz | - | - | 606 | - |
| **Aylıq geri-ödəmə (sabit)** | 20,2 | | | |
| - əsas hissə (orta) | 15,2 | | | |
| - faiz (orta) | 5 | | | |

# Standart və sosial təhsil tələbə krediti üzrə illik faiz dərəcələri ilə bağlı TƏKLİF

Aktuar hesablamaların nəticəsini nəzərə alaraq, Təhsil Tələbə Krediti Fondunun Himayəçilik təhsil tələbə kreditləri üzrə aşağıdakı faizləri təklif edir:

**2%** Sosial təhsil tələbə krediti üzrə illik

**6%** Standart təhsil tələbə krediti üzrə illik



# TƏLƏBƏ KREDİTİ ELEKTRON İNFORMASİYA SİSTEMİ

1. Tələbə "Elektron Təhsil Tələbə Krediti" sistemində qeydiyyatdan keçir və ona elektron şəxsi kabinet açılır

2. **"Elektron Təhsil Tələbə Krediti" sistemi tələbənin kredit almaq hüququnu müəyyən edir:**
   - hüquq yarandığı halda tələbənin şəxsi kabinetinə bu barədə məlumat göndərilir və tələb olunan sənədləri müvəkkil banka təqdim olunması xahiş olunur
   - hüquq yaranmadığı halda tələbənin şəxsi kabinetinə imtinanın səbəbləri barədə məlumat göndərilir

3. Tələbə müvəkkil banka müraciət edir və tələb olunan sənədləri təqdim edir

4. Tələbə kreditin alınması üçün sığorta və kredit müqavilələrini imzalayır

5. Bank kreditin təhsil haqqı hissəsini təhsil müəssisəsinə, sığorta haqqı hissəsini sığorta şirkətinə köçürür

6. Tələbə məzun olduqdan sonra kredit müqaviləsində müəyyən edilmiş ödəniş qrafikinə uyğun kredit borcunu qaytarır

# MÜVƏKKİL BANK/BANKLAR

Tələbə Krediti Fondu satınalma müqaviləsinə uyğun olaraq bir və ya bir neçə müvəkkil bankla əməkdaşlıq edir.

## Müvəkkil bank aşağıdakı funksiyaları icra edir:

- TKF ilə baş saziş imzalayır və elektron təhsil tələbə krediti sisteminə qoşulur;
- sistem vasitəsi ilə hüququ yaranan tələbələrin müraciətlərini qəbul edir;
- müqavilənin rəsmiləşdirilməsi üçün tələb olunan sənədləri yoxlayır, tələbəni sığorta şirkəti ilə əlaqələndirir və kredit üçün məcmu tələbatı müəyyən edərək Fonda vəsait üçün müraciət edir;
- vəsait alındıqdan və sığorta müqaviləsi imzalandıqdan sonra tələbə ilə çərçivə kredit müqaviləsini rəsmiləşdirir;
- təhsilin normativ müddətində hər tədris semestri/yarımil üçün kredit almaq hüququ yarandığı halda tələbənin müraciəti əsasında tranşlarla (hissələrlə) kreditin təhsil haqqı hissəsini təhsil müəssisəsinə, sığorta haqqı hissəsini sığorta şirkətinə köçürür;
- möhlət və digər zəruri hallar yarandığı halda kredit müqaviləsində müvafiq dəyişikliklər edir və ya müqaviləni yenidən bağlayır;
- müqavilə öhdəliklərinin borcalan tərəfindən yerinə yetirilməsinə nəzarət edir və qanunvericiliklə bankın üzərinə düşən bütün öhdəlikləri icra edir;
- Fonda baş sazişlə müəyyən edilmiş qaydada hesabat verir.



# TƏLƏBƏ KREDİTİNİN QAYTARILMASI ÜZRƏ XÜSUSİ TƏLƏBLƏR

Kreditin ödəmə mənbəyindən tutulması üçün tələbənin razılığı tələb olunur.



- Tələb kreditini məzunun (tələbənin) özü və ya onun əvəzinə hər hansı bir şəxs (məsələn, valideyni, qohumu və s.) tərəfindən qaytarır;
- Əmək müqaviləsi ilə işləyən və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olan, lakin ödəniş cədvəlinə uyğun krediti qaytarmayan məzunlardan kredit üzrə ödənişlər ödəmə mənbəyindən tutulur;
- Tələbə potensial işçi və ya sahibkar kimi əmək fəaliyyətində və ya sahibkarlıq fəaliyyətində olacaqları halda alacaqları əmək haqqından və ya gəlirdən tələbə kreditinin qaytarılması məqsədi ilə bankın xeyrinə tutulmaların (gəlirin 20 faizindən çox olmamaq şərti ilə) edilməsinə razılığını notarial qaydada təsdiq edərək **kredit müqaviləsi bağlanan zaman** banka təqdim edir;
- Əmək müqaviləsi ilə işləyən məzundan tələbə kreditinin ödəmə mənbəyindən tutulması Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 175-ci maddəsinin tələblərinə uyğun həyata keçirilir;
- Sahibkarlıq fəaliyyəti ilə məşğul olan məzundan kredit üzrə ödənişlərin ödəmə mənbəyindən tutulması müvəkkil bankın sahibkarın bank hesabına sərəncamların qoyulması vasitəsilə tutulur.
- Digər hallarda ödəniş cədvəlinə uyğun krediti qaytarmayan məzunlardan kredit üzrə ödənişlər məhkəmə qaydasında tutulur.

# TK HESABLAMA

Nümunə

| Təhsil Tələbə Krediti | Təhsil müddəti ərzində hər semestr üçün 1000 AZN Sosial TTK almış tələbə üzrə hesablama | | | Təhsil müddəti ərzində hər semestr üçün 1000 AZN Standart TTK almış tələbə üzrə hesablama | |
|---|---|---|---|---|---|
| | Bütün güzəştlər şamil edildiyi halda, yəni bütün semestrlər üzrə 91 bal və üzəri | Bütün semestrlər üzrə 71 bal və üzəri | Heç bir güzəşt hüququ yaranmadığı halda | Bütün güzəştlər şamil edildiyi halda, yəni bütün semestrlər üzrə 91 bal və üzəri | Heç bir güzəşt hüququ yaranmadığı halda |
| 4 il üçün cəmi götürülmüş TTK və hesablanmış sığorta haqqı (8000+200) | 8.200,00 | 8.200,00 | 8.200,00 | 8.200,00 | 8.200,00 |
| Aylıq ödəniş | 35,02 | 70,04 | 77,34 | 52,53 | 93,31 |
| Qaytarılma dövrü (təhsillini bitirdikdən sonra güzəşt və möhlət dövrü bitdikdə) | 10 il | 10 il | 10 il | 10 il | 10 il |
| Cəmi qaytarılacaq məbləğ | 4.202,40 | 8.404,80 | 9.280,80 | 6.303,60 | 11.197,20 |



# DİQQƏTİNİZƏ GÖRƏ MİNNƏTDARIQ


www.ttkf.edu.az

office@ttkf.edu.az